بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

# Şeyx Qüdrət fenomeni



*"Alim və tələbə hər ikisi inkişaf və hidayətdə şərikdirlər"*. **İmam Hadi (ə)**

Ötən əsrin ortalarına qədər Azərbaycandan olan din xadimləri İslam aləminin ən böyük elmi-dini mərkəzlərinin məzunu olmuş, həmin elm ocaqlarının formalaşmasında böyük xidmətlər göstərmişlər. Bu cür şəxsiyyətlər sırasında yüzlərlə ictihad dərəcəsinə çatanlar, dövrünün ən nəhəng din alimlərini yetişdirənlər olmuşdur. Azərbaycandan olan İslam alimlərinin illərlə zəhmət çəkib ərsəyə gətirdikləri elmi əsərləri bu gün də, İraqın Nəcəfül-Əşrəf, İranın Məşhəd və Qum şəhərlərinin elmi-dini mərkəzlərində dərs vəsaiti kimi tədris olunur.

Sovet hakimiyyəti dini təhsil alıb hər cür çətinliklərə dözərək mənəvi dəyərləri təbliğ etməyi qarşısına məqsəd qoyan həmvətənlərmizin əksəriyyətini həbs edərək güllələmiş, qiymətli əsərlərini yandırmış, bəzilərini müxtəlif ərazilərə sürgün etmiş, bir çoxlarını isə ömrünün sonuna qədər həbsdə saxlamışdır.

Müstəqillik qazandıqdan sonra dini-mənəvi sahədə əldə olunan intibah öz təzahürlərini məscid və dini təyinatlı yerlərin yenidən bərpası

ilə yanaşı böyük din alimlərinin həyatının araşdırılaraq tədqiq olunması, əsərlərinin yenidən nəşr olunmasında göstərmişdir.

Azərbaycanın Cənub bölgəsinin halal, zəhmətkeş adamlarının hər biri milli-mənəvi dəyərlərinə nə qədər hörmət edirlərsə, bir o qədər də, din xadimlərinin ehtiramını saxlayıb gənc nəslin nümayəndələrinə onların ibrətlə dolu həyatını daim xatırladırlar. Bütün el məclislərində hörmətlə yad olunan din xadimlərindən biri də, xalq arasında Şeyx Qüdrət kimi tanınan Abbasov Qüdrət Ağakişi oğludur.

Abbasov Qüdrət 1905-ci ildə Masallı rayonu Babaser kəndində zəhmətkeş bir ailədə dünyaya göz açmışdır. Uşaqlıqdan dini dəyərlərə olan marağı onu ilahiyyat elmlərini öyrənməyə sövq edirdi. O, ilk ibtidai dini dərsləri atasından, daha sonra isə Mollaoba kəndindən olan Molla Mikayıldan almışdır.

Şeyx Qüdrət xüsusi istedadı sayəsində ilahiyyat elmlərini dərindən mənimsəmişdi. O, gənc yaşlarından müqəddəs Qurani-Kərimi gözəl səslə təcvid qaydalarına uyğun oxuyur, fars dilində sərbəst danışırdı.

Daha sonra təhsilini dövrünün məşhur dini elmi ocaqlarından sayılan Ərdəbil şəhərindəki “Mirzə Əli Əkbər” mədrəsəsində almışdır. Vətənə yüksək dini biliklərlə qayıdan Qüdrət Abbasov qısa zaman kəsiyində xalq arasında “Şeyx” kimi tanınmağa başlamışdır.

1930-cu illərdə Sovet hakimiyyətinin təqibləri Şeyx Qüdrətdən də yan keçməmişdir. Dəfələrlə hüquq mühafizə orqanlarına çağırılan Şeyx Qüdrət günahkar olmadığı üçün sərbəst buraxılmışdır. O, nə qədər təqib və təzyiqlərə məruz qalsa da, İslam maarifindən əl çəkməmiş, ömrünün sonuna qədər mənəvi dəyərləri insanlara çatdırmışdır.

Şeyx Qüdrət iki dəfə ailə qurmuş, ilk nikahı Nigar xanımla olmuşdur. Bu evlilikdən 2 qız övladı dünyaya gəlmişdir. Nigar xanım dünyasını dəyişdikdən sonra Şeyx Qüdrət Suğra xanımla nikah bağlamışdır. Bu nikahdan isə Əhməd, Cəfər, Abdullah, Məhəmmədağa, Əbdül adlı oğlanları və 2 qız övladları dünyaya gəlmişdir.

Şeyx Qüdrət təkcə dini bilikləri xalqa çatdırmır, "Hüseyn" təxəllüsü ilə mərsiyə və qəsidələr yazırdı.

Böyük islam alimi Şeyx Bəhainin(1546-1622)fiqh və şəriət məsələlərindən bəhs edən"Cameyi-Əbbasi" kitabını ilk dəfə dilimizə tərcümə və şərh etmişdir.

Özündən sonra yolunu davam edə biləcək bir çox tələbələr yetişdirmişdir. Tələbələri sırasında oğlu Əhməd Abbasov böyük nüfuza malik din xadimlərindən biri olmuş, uzun müddət Təzə pir məscidinin axundu işləmişdir. O, 2015-ci ildə dünyasını dəyişmişdir.

Respublikanın tanınmış din xadimlərindən biri olan Mirəziz Seyidzadə də Şeyx Qüdrətin tələbəsi olmuşdur. 10-dan çox kitabın müəllifi olan M. Seyidzadə Qafqaz Müsəlmanlar İdarəsinin Fətva şöbəsinin müdiri vəzifəsində çalışmışdır. O, 2014-cü ildə dünyasını dəyişmişdir.

Digər tələbəsi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadədir. Şeyxülislam Allahşükür Paşazadə ilə yanaşı, Əhməd Abbasov və Mirəziz Seyidzadə Şeyx Qüdrətin zəmanəti və Təzə Pir məscidinin göndərişilə Buxaradakı ali dini təhsil mərkəzlərinə göndərilmişdi.

Məhz bu gün Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadənin gərgin əməyi nəticəsində Azərbaycan dövlət-

din münasibətlərinin ən yaxşı dövrünü yaşayır. Qafqazın ağsaqqalı, habelə bu bölgədə yaşayan bütün inanclı insanların önündə gedən Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin rəhbərliyi ilə bütün dini, mənəvi dəyərlərimiz yüksək səviyyədə məscidlərdə təbliğ olunmaqdadır.

Bu gün də öz ustadını hörmətlə xatırlayan Şeyxülislam həzrətləri demək olar ki, dəfələrlə çıxışlarında Şeyx Qüdrəti hörmətlə xatırlamış, xoş təəssüratlarını məclisdəkilərlə bölüşmüşdür.

İslam alimi olmaq şərəfli bir məqamdır və bu məqam insanın özünü hesab etməsi ilə deyil, həqiqətən Allah Təalanınucaltdğıkəslərə şamil edilir. Bu məqama yalnız həqiqətən Allahın razılığını qazanmaq üçün elm tələb etmək yolunda nəfsi istəklərini tərk edərək ixlasla, səmimiyyətlə, illərini sərf edən, öyrəndikləri elmi ilk öncə öz əməlləri ilə zahir edən, sonra buna ən düzgün yolla insanlara çatdıran, çətinliklərə səbrlə sinə gərən ən şərəfli insanlar nail olurlar.

Böyük məqama sahib olan Şeyx Qüdrət 1975-ci ildə vəfat etmişdir. Bu günə qədər Şeyx Qüdrət unudulmur, xalq arasında onun əziz xatirəsi hörmətlə yad olunur.

Allah rəhmət etsin. Amin

***Samid Quliyev***

İlahiyyatçı-alim, AJB-nin üzvü